**Pakistanla ölkəmizi tarixən qardaşlıq, dostluq, səmimi əməkdaşlıq münasibətləri birləşdirir. Eyni zamanda bu münasibətlər siyasi, iqtisadi və hərbi sahələrdə dinamik inkişaf edir. 1991-ci ildə Pakistan Azərbaycanın müstəqilliyini ilk tanıyan dövlətlərdəndir. İki dost, iki qardaş ölkə dövlətlərimizin ərazi bütövlüyü və suverenliyi məsələsində qarşılıqlı surətdə həmişə bir-birini dəstəkləyib.**



# AZƏRBAYCANLA PAKİSTAN
## ARASINDA QARDAŞLIQ VƏ STRATEJİ ƏLAQƏLƏR MÖHKƏMLƏNİR



Pakistan Qarabağ məsələsində Azərbaycanın haqq işini daim müdafiə edib. İşğalçı dövlət olan Ermənistanla diplomatik əlaqələr qurmayıb. Eyni zamanda Azərbaycan da Kəşmir məsələsində hər zaman Pakistanı dəstəkləyib. İki qardaş ölkə bütün məsələlərdə bir-birinə arxa durur, qarşılıqlı köməyi, dəstəyi uğurla davam etdirir.

Azərbaycanla Pakistan arasında əlaqələrin inkişafı və genişlənməsi hər iki ölkənin maraqlarına cavab verir. Strateji tərəfdaşlıq səviyyəsində münasibətlər regional və qlobal sabitlik üçün əhəmiyyətli rol oynayır. Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin Azərbaycana növbəti səfəri ölkələrimiz arasında qardaşlıq əlaqələrinin, səmimi əməkdaşlığın daha da möhkəmlənməsinə xidmət edir.

Dövlətimizin başçısı cənab İlham Əliyev Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif ilə geniş tərkibdə görüşü zamanı çıxışında dedi: **"Münasibətlərimiz nəinki xalqlarımız, o cümlədən təmsil etdiyimiz regionlar üçün həqiqətən vacibdir. Pakistan ilə Azərbaycan arasında bu cür qardaşlıq münasibətlərini görmək iki qardaş müsəlman ölkəsi arasında tərəfdaşlığın yaxşı nümunəsidir. Biz beynəlxalq təsisatlarda hər zaman bir-birimizi dəstəkləyirik, ölkələrimizin ərazi bütövlüyünə, suverenliyinə güclü dəstək veririk və qeyd etdiyim kimi, qarşımızda çox geniş sərmayə gündəliyi dayanır".**

Pakistanın Baş naziri Azərbaycan Prezidenti İlham Əliyevin keçən ilin yayında Pakistana səfərinin ikitərəfli əlaqələrin daha da gücləndirdiyini vurğulayaraq söylədi: **"Pakistan xalqı səfəriniz zamanı çox sevindi və məmnun oldu. Düşünürəm ki, Azərbaycan və Pakistan xalqlarının ürəyi bir döyünür. Mən bunu tam səmimi-qəlbdən söyləyirəm. Siz hər zaman Pakistanın böyük dostu olmusunuz. Siz Pakistan xalqını sevirsiniz.**

**Eyni zamanda Pakistanın bütün hökumətlərini, ölkəmizin bütün siyasi partiyalarını ortaq məqsəd birləşdirir: bu, bizim Azərbaycanla, Sizinlə və Azərbaycan xalqı ilə olan dostluğumuz və qardaşlığımızdır".**

Azərbaycan və Pakistan arasında siyasi münasibətlərin yüksək səviyyədə olması, iqtisadi və ticarət əlaqələrinin də eyni dinamika ilə inkişaf etməsi üçün geniş imkanlar yaradır. Möhtərəm Prezidentimiz keçən il qardaş ölkəyə dövlət səfəri zamanı Pakistanda müxtəlif layihələrə minimum 2 milyard dollar sərmayə yatırılacağını bəyan etmişdir.

Xüsusilə nəqliyyat və logistika sahəsində əlaqələrin inkişafı ölkələrimiz üçün yeni iqtisadi imkanlar yarada bilər. Azərbaycan və Pakistan arasında iqtisadi, ticari, enerji, müdafiə, nəqliyyat və digər strateji sahələri əhatə edən 10-dan çox sazişin imzalanması hər iki ölkənin müxtəlif sahələrdə daha sıx əməkdaşlıq etməyə hazır olduğunu göstərir. Bütün bunlar gələcək əməkdaşlıq, o cümlədən ticari dövriyyənin artımı üçün yaxşı bünövrə yaradacaq.

Pakistanın çox inkişaf etmiş müdafiə sənayesi vardır. Azərbaycan da bu sahədə potensialını inkişaf etdirir. Ölkəmizin müdafiə sənayesinin məhsulları artıq 30-dan çox ölkəyə ixrac olunur. Görüş zamanı müdafiə sənayesi məhsullarının birgə istehsalı müzakirə edilib. Qeyd olunub ki, hər iki ölkə müdafiə sənayesi üzrə uzun illər əməkdaşlıq edir. Ancaq zaman yetişib ki, bu sahədə Azərbaycan-Pakistan birgə müəssisələri yaradılsın. Birgə istehsal nəticəsində ixracyönümlü təchizat daha da artacaqdır.

Pakistan və Azərbaycanın ticarət əlaqələrində müsbət dinamika hiss edilsə də, bu sahədə potensial daha böyükdür və görüləcək işlər də çoxdur. Bu baxımdan, qarşılıqlı sərmayələrin yatırılması və yeni biznes imkanlarının yaradılması ölkələrimiz üçün olduqca faydalıdır. Bu baxımdan Azərbaycan Prezidenti İlham Əliyev və Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin iştirakı ilə Bakıda təşkil edilən biznes-forum çox mühüm bir addımdır. Forum hər iki ölkənin iş adamları və şirkətləri üçün yeni əməkdaşlıq imkanlarını araşdırmaq, tərəfdaşlıq qurmaq üçün ideal platformadır. Bu cür biznes-forumlar sahibkarlara yeni fürsətlər təqdim etmək baxımından böyük əhəmiyyət daşıyır. Həmçinin sərmayə cəlbi və biznes mühitinin təşviqi istiqamətində aparılan müzakirələr, hüquqi və gömrük məsələlərinin aydınlaşdırılması iş adamları üçün əlverişli şərait yaradır.

Biznes-forumda qeyd olunub ki, Azərbaycanın Ticarət Palatasının İslamabadda nümayəndəliyi təsis edilib. Pakistan Ticarət Palatasının da Bakıda nümayəndəliyi təsis ediləcəkdir. Bu iki palata sıx əməkdaşlıq edərək bir-birini qarşılıqlı şəkildə məlumatlandıracaq, potensial sərmayəçilərə əlavə informasiya verəcək və ikitərəfli ticarətin inkişafında mühüm rol oyayacaqdır.

Nəqliyyat və kommunikasiyalar sahəsində əməkdaşlıq Azərbaycan və Pakistan üçün mühüm strateji əhəmiyyət daşıyır. Ölkəmizin Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərində iştirak etməsi, qlobal ticarət marşrutlarında mühüm logistika mərkəzi kimi mövqeyini daha da gücləndirir.

Azərbaycanın coğrafi mövqeyi və nəqliyyat dəhlizlərindəki rolu Pakistanla daha sıx əlaqələrin qurulması üçün geniş imkanlar yaradır. Bu dəhlizlər vasitəsilə Pakistanın Orta Asiya və Avropa bazarlarına çıxışı daha da asanlaşacaq. Beynəlxalq daşımalar və tranzit imkanlarının genişləndirilməsi iki ölkə arasındakı ticari əlaqələrin gücləndirilməsinə kömək edəcəkdir. Bundan əlavə, çoxtərəfli əməkdaşlıq formatları həm iqtisadi inkişafı, həm də regional sabitliyi təmin edir.

Dövlətimizin başçısının ötən ilin yayında qardaş ölkəyə səfəri zamanı Azərbaycanın Pakistanın müasirləşdirilməsində və müəyyən tarixi abidələrin bərpasında iştirakı barədə müzakirələr aparılıb. O vaxtdan ölkəmizi təmsil edən heyət Pakistan tərəfi ilə razılaşdırılmış şəkildə fəaliyyət göstərir. İslamabad şəhəri həm yaşıllaşdırılır, həm də landşaftla bağlı müəyyən işlər görülür. "Bakı Abadlıq Xidməti" MMC tərəfindən İslamabadda icra olunan layihələrdən artıq biri yekunlaşıb, üç layihə üzrə isə işlər davam etdirilir. Həyata keçirilən layihələr İslamabadı daha da gözəlləşdirəcəkdir.

Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin Azərbaycana rəsmi səfəri ölkələrimiz arasında münasibətlərin yeni inkişaf mərhələsinə qədəm qoyduğunu və gələcəkdə daha sıx əməkdaşlıq imkanlarının yaranacağını göstərir. Baş nazir Azərbaycan-Pakistan biznes-forumunda əminliklə qeyd edib ki, "Fars körfəzinin və Xəzər dənizinin suları birləşəcək. Bu, ölkələrimiz arasında mühüm bir sinerji və enerjidir. Həqiqətən də bu, bizim qardaşlıq münasibətlərimizi daha yüksək səviyyəyə, misilsiz səviyyəyə qaldıracaq".

**Vasif QAFAROV,**
**Milli Məclisin deputatı,**
**tarix elmləri doktoru.**